# Mühüm əhəmiyyətli tədbir

"Azərbaycan növbəti dəfə beynəlxalq səviyyəli tədbirə - Bakı Enerji Həftəsinə evsahibliyi edir. Prezident İlham Əliyevin iyunun 4-də başlayan Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin açılışında çıxış etməsi də bu tədbirin yüksək statusundan xəbər verir. Bu tədbir artıq uzun illərdir ki, xüsusilə enerji məsələlərinin müzakirəsi və bu sahədə əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platformaya çevrilib".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat qeyd edib ki, Bakı Enerji Həftəsində enerji sektorundakı aktual məsələlər müzakirə edilir: "Enerji sənayesinə sərmayələr qoyan nəhəng şirkətlərin bu kimi tədbirlərdə təklif və təşəbbüslərlə çıxışları, yeni əməkdaşlıqlara başlamaları dünya enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə böyük töhfə verir. 30-dan çox ölkədən 300-dək şirkətin iştirak etdiyi Bakı Enerji Həftəsində dünyanın enerji sənayesinin liderlərinin bir araya gəlməsi göstərir ki, bu tədbir enerji təhlükəsizliyinin təmini ilə bağlı böyük hadisədir".

Deputat söyləyib ki, Prezident İlham Əliyevin tədbirin açılış mərasimində iştirakı və çıxışı qlobal enerji ailəsinə hörmətin nümunəsi kimi səciyyələndirilir, tədbirin statusunu daha da yüksəldir: "Bu mühüm platformanın müəllifi Azərbaycandır. Qlobal enerji ailəsinin ortaq iqtisadi dialoquna çevrilən Bakı Enerji Həftəsinin builki özəlliyi və tədbirə yeni məzmun gətirən başlıca istiqaməti isə bu dəfə platformada "yaşıl enerji" blokunun xüsusi yer almasıdır. Tədbirlərə qatılan şirkətlərin təxminən 15 faizi məhz "yaşıl enerji" sektorunun təmsilçiləridir. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərirlər".

Pərvin Kərimzadənin sözlərinə görə, vaxtilə "Əsrin müqaviləsi" Azərbaycanın böyük enerji strategiyasının əsasını qoyduğu kimi, iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlinin qoyulması da göstərir ki, ölkəmizdə bərpaolunan enerji sahəsində yeni era başlayıb.

Xatırladaq ki, bu il Azərbaycanın neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür. Bu barədə danışan Pərvin Kərimzadə deyib ki, yeni neft strategiyasının Azərbaycanın müstəqillik tarixində rolu hədsiz dərəcədə böyükdür: "Nəzərə almaq lazımdır ki, ölkəmizin iqtisadi inkişafının təməlini neft gəlirləri təşkil edir. Neft gəlirləri respublikamızın sosial-iqtisadi tərəqqisinə dərin zəmin yaratmaqla bərabər, güclü ordu quruculuğunun təmin olunmasında da real vasitə olmuş və Azərbaycanın öz dövlət suverenliyini, ərazi bütövlüyünü təmin etməsində fundamental baza rolunu oynamışdır. Bu baxımdan, "Əsrin müqaviləsi"nin imzalanması tarixi-iqtisadi məna daşıyır. Bu əlamətdar hadisənin Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapması təsadüfi deyil".

Deputat vurğulayıb ki, belə mühüm platformalara beynəlxalq marağın ildən-ilə artması həm də Azərbaycanın dünya miqyasında yüksələn nüfuzunun göstəricisidir: "Ölkəmizin qlobal aləmlə əlaqələrinin və əməkdaşlıq coğrafiyasının genişlənməsi sevindirici haldır. Bu coğrafiya ABŞ, Avropa İttifaqı, Türkiyə, ərəb-islam dünyası və digər əraziləri əhatə edir. Nüfuzlu dövlətlərin rəhbərlərinin bu beynəlxalq tədbirlə əlaqədar təbrik məktubları da Bakı Enerji Həftəsinə dünya səviyyəsində verilən önəmin göstəricisidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 6 iyun, № 118.- S.6.